**UOT 398:801.6**
**https://doi.org/10.59849/2218-4783.2026.1.219**

# NAXÇIVAN FOLKLOR MƏTNLƏRİNDƏ YUXU MOTİVİ VƏ ONUN SİMVOLİK SEMANTİKASI

# SLEEP MOTIVE AND ITS SYMBOLIC SEMANTICS IN THE NAKHCHIVAN FOLKLORE TEXTS

**Aytən CƏFƏROVA***

## XÜLASƏ

Dünyanın ən məşhur psixoanalitikləri müxtəlif dövrlərdə yuxu haqqında araşdırmalar aparıblar. Yuxularda ayrı-ayrı düşüncələri, yanaşmaları simvolizə edən obrazlar lap qədim dövrlərdən məlumdur. Orta əsrlər Avropa mədəniyyətində yuxunu assosiativ zənginlik, hər hansı sirri tam açılmamış hadisə kimi qəbul edirdilər. Dünyəvi məsələlərə xidmət etməyə başlayan zamanlarda yuxunun elementləri sirli element kimi dəyərləndirilirdi. Buna padşahlar haqqında rəiyyət nümayəndəsinin gördüyü yuxu və bu yuxu ilə gələcək həyatda atılacaq addımlar misaldır. Bəzi yuxu elementləri yuxu mifologiyasında və xalq düşüncəsində köklü simvolika daşıyır. Bir çoxu isə dövrdən dövrə keçdikcə mənası deformasiyaya uğrayır, bəzən də bir element kəsb etdiyi əvvəlki mənaya sonralar tamamilə zidd məna qazanırdı. Bu da yuxu elementinə çevrilmiş həmin məfhuma qarşı dövrün münasibətindən qaynaqlanan məqamdır. Hər halda yuxu elementinə çevrilmiş məfhum mövcud olduğu poetik mətndə – folklor örnəyində sakral və ya əks mənalar qazansa da, hər halda mətn qəhrəmanına keçəcəyi çətin yolda açar rolunu oynayaraq öncədən məlumat verir. Bu yöndən, yuxu mətn daxilində sakral mövqe qazanmış ilkin janr nümunəsidir.

**Açar sözlər:** *yuxu, mifologiya, folklor, qəhrəman, simvol.*

## ABSTRACT

The world's most renowned psychoanalysts have conducted research on dreams in different periods. Images symbolizing different thoughts and approaches in dreams have been known since ancient times. In medieval European culture, dreams were perceived as a wealth of associations and as phenomena whose mysteries had not been fully disclosed. When dreams began to serve worldly concerns, their elements were valued as mysterious components. An example is the dream of a subject about kings and the steps to be taken in future life based on that dream. Some dream elements carry deep-rooted symbolism in dream mythology and folk thought. Many, however, have undergone deformation in their meaning from era to era; sometimes an element later acquired a meaning completely opposite to its earlier sense. This arises from the attitude of a given epoch toward the concept that has become a dream element. In any case, even if the concept that has become an element of a dream acquires sacred or contradictory meanings in the poetic text in which it exists – in a folklore example – it nonetheless plays the role of a key for the hero of the text, providing him with advance information about the difficult path he is to take. In this regard, the dream is an example of an initial genre that has acquired a sacred status within the text.

**Keywords:** *dream, mythology, folklore, hero, symbol.*

## GİRİŞ

Qədim dövrlərdə yuxular o biri dünyadan gələn ismarış xarakterini daşıyırdı və gecələr görülən yuxulardan istifadə edilərək gələcək planlaşdırılırdı. Əvvəllər yuxuları yozan, onların sirli açıqlamasını verə bilən xüsusi insanlar fəaliyyət göstərirdilər. Çox zaman bu işi cadugərlər də icra

* AMEA Naxçıvan Bölməsi – Naxçıvan, E-mail: ceferli_ayten@mail.ru
ORCID: 0000-0002-9547-3155

edirdilər. Müxtəlif mənalarla yozulan yuxuları bilicilər kağıza köçürüb saxlayarmışlar. Və bu yuxular, adətən, sınaqdan çıxarılmış yuxular olurdu. Bəzi din mütəxəssisləri insanın yuxuya gedərkən duyğu yollarının bağlandığını, lakin qəlb qapısının açıldığını deyirlər. Bu zaman insan bu qapıdan çıxır, geniş bir dünyada gəzişərək fərqli bir aləmi seyr edir. Bu və ya bu kimi inanclar onu deməyə imkan verir ki, bütün dinlər və onun inanc sistemində yuxu ilə bağlı görüşlər zəngindir. Elə yuxuların yozulmasında da çox vaxt din xadimlərinə müraciət az olmamışdır. Ümumiyyətlə, ilahi dinlərin qutsal səpkili mətnlərində yuxularla bağlı ayələrin də olduğu danılmazdır. Ona görə də yuxular dini nöqteyi-nəzərdən də qutsal mövqedə qəbul edilən bir hadisədir.

## ƏSAS HİSSƏ

Yuxu real dünya ilə o biri dünya arasında sərhəd rolunu oynayırdı. Slavyan xalqların ənənəvi mədəniyyətdə yuxu ölüməbənzər hadisə hesab olunurdu. Bu zaman ruhun insan bədənini quş və kiçik ölçülü heyvan şəklində tərk etdiyinə inanılırdı.

Folklor mətnlərində yuxu, əsasən, su və işıq arxetipləri ilə qarşılaşdırılır. Belə ki, yuxunu axar suya və ya işığa danışmaq inancı yuxunun xeyirlə bağlanacağı inancından qaynaqlanır: "Əgər yuxunu axar suya desən, aparıb yerinə çatdırar" [El sözü, yurd yaddaşı. Folklor toplusu, 2010, s. 113] və ya "Yuxunu işığa desən, aydınlıq olar" [El sözü, yurd yaddaşı. Folklor toplusu, 2010, s. 113]. Yuxunun su və işıq arxetipləri ilə əlaqəsi haqda folklorşünas-alim Cəlal Məmmədov yazır: "Bir sıra türk xalqlarının etiqadında, gecələr başqasına yuxu danışmazdılar. Danışılsa da, gərək "çırağa danışıram" deyiləydi ki, zərərli olmasın. Pis yuxu axar suya danışılardı ki, yusun aparsın. Yaxşı yuxu da yenə axar suyun təmizliyinə danışılardı ki, aydınlıq olsun. İnandıqlarından da, pis yuxu görən zaman daşı qaldırıb yuxunu danışar, sonra daşı yenə yerinə qoyardılar ki, həmin qarışıq yuxunu puç eləsin..." [Bəydili, 2003, s. 407]. Su təmizlik, saflıq, uğur simvoludur. Yuxuda su görmək, əsasən, gələcək həyatın uğurlu olacağına işarədir. Bu, xalq yozumlarında da belədir: "Yuxuda su görmək oldux qədər aydınnıxdı" [Bəydili, 2003, s. 110].

Yuxuların ilkin mifik stixiya hesab edilən ağac arxetipi ilə də bağlılığı müşahidə olunur. Belə ki, yuxuda ağac görmək xeyrə yozulur, deyərlər. Ağac arxetipi digər ilkin janr örnəklərində, eləcə də mərasim örnəklərində uğur simvolu kimi təqdim edilir (bunu duvaqqapma mərasimi zamanı müşahidə edirik: duvağın barlı ağac başına atılması və s.). Digər ilkin janr örnəklərində ağacın bərəkət rəmzi kimi simvolizə edildiyini də müşahidə edirik. Eləcə də yuxuda ağac görmək xeyirlə bağlanır: "Yuxuda ağac görmək bolluğa işarədi" [El sözü, yurd yaddaşı. Folklor toplusu, 2010, s. 113]; "Yuxuda barrı ağac övladdı" [Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru antologiyası, 2011, s. 78].

Yuxu yozumunda zamanı mifoloji düşüncələr hakim olduğuna görə onlar folklorun ilkin janrlarına aid edilir. Folklor mətnlərində yuxuları görənlərin şəxsiyyətlərinə və məxsus olduqları statuslara görə yozumlar təqdim olunur. Məsələn, xanların, bəylərin gördükləri yuxular rəiyyət yuxuları ilə eyni bərabərdə yozulmurdu. Eləcə də peyğəmbər yuxusu müqəddəs sayılıb. Və bunlar da folklor mətnlərində poetikləşərək təqdim olunur. Hətta yuxuda yüksək mövqe sahiblərini, həmçinin peyğəmbərləri və digər müqəddəsləri görmək də mötəbər yuxulardan hesab olunur. Peyğəmbər yuxuları haqqında bir çox yazılı mənbələrdə – salnamələrdə, ədəbi abidələrdə, eləcə də folklor janrlarında: mahnılarda, dastanlarda və nağıllarda bəhs edilir.

Yuxuda insanın gördüyü nə varsa, onların simvollaşması və həyati hadisələrlə əlaqələnməsi bu günə deyil, qədim zamanlara məxsus hadisədir. Yuxu simvolu xaos dünyası ilə bağlı olan və onu kosmos dünyasında təmsil edən gerçəkliyin faktıdır. Yuxu simvollarının əsas cəhəti budur ki, o, şüuraltında var olanın şüura ötürülməsi prosesində aktiv iştirak edir. Əslində, yuxu, çox vaxt şüuraltının güzgüsü kimi çıxış edir. Yəni şüuraltı icra etmək istədiklərini yuxu vasitəsilə şüura göndərir. Bu zaman yuxunu şüuraltı ilə bağlı olan bir hadisə kimi də qiymətləndirmək olar.

Yuxuları naməlumlarla dolu olan bir hadisə kimi də qiymətləndirirlər. Lakin yuxunun real aləmdə gerçək olan hadisə ilə bağlı öncədən xəbər vermə xüsusiyyəti kəsb etməsi onu naməlum fakt olmaq düşüncəsindən uzaqlaşdırır. Ən yaxşısı, yuxunun şüuraltının əks etdirdiyi real hadisə adlandırmaq daha düzgün olardı.

Ümumiyyətlə, daimi olaraq insanın öz gələcəyini bilmək, öyrənmək, ona uyğun olaraq öz işlərini tənzimləmək arzusu olub. Yuxularda da bu arzunun ifadəsi əks olunur. Belə ki, yuxuda görülən məfhumları insanın gələcəyi ilə əlaqələndirərək yozan bilicilər insanın gördüyü yuxunun təsirindən uzaqlaşdırmamağa çalışır, onun yaxşı və ya pis gələcəkdən xəbər verən çox vacib, önəmli bir fenomen olduğuna inandırırdılar. Çox vaxt bəzi din xadimləri yuxudan istifadə edərək insanın davranışlarını öz məqsədinə uyğun şəkildə yönləndiriblər. Yuxuya inanan, onun fövqəltəbii bir hadisə olduğunu bütün varlığı ilə qəbul edən qədim insan təfəkküründə yuxunun "tövsiyə etdiyi" yoldan çıxmaq da günah kimi qəbul edilirdi.

Yuxuların müxtəlif mənalar daşıması, onların yozulması ərazilərə məxsus olaraq fərqli təqdim olunur. Naxçıvandan toplanmış yuxuyozumları növləri içərisində atla bağlı görülən yuxuların yozumları qədim ənənə ilə bağlıdır. "At muraddır" atalar sözündən qaynaqlanaraq yuxuda at görülərsə, arzuya, istəyə, murada çatmaq kimi yozulur. Etnik düşüncədə at igidin yar-yoldaşı hesab edilirdi. İgidin atını öldürmək onun heysiyyətinə toxunmaq kimi qəbul edilirdi. Ata hörmət, məhəbbət göstərmək isə onun sahibinə ona ehtiramı ifadə edirdi. İgidə yar-yoldaş olan ata göstərilən qayğı, məhəbbət onun uğurla, qalibiyyətlə bağlı olduğu düşüncəsindən qaynaqlanır. Odur ki, yuxuda at görmək arzuya, murada çatmaq kimi yozulur. Yüksək mövqeyə, arzuya çatmaq yuxu yozumlarında ucalıq anlamı ilə simvolizə edilir: "Yuxuda at ucalıqdı" [El sözü, yurd yaddaşı. Folklor toplusu, 2010, s. 113]. Yuxuda ağ at görmək arzulara sürətlə yetişmək mənasını daşıyır. Bu barədə alim F.Hicran psixoanalitik Ziqmund Freydə və K.Yunqa əsaslanaraq belə yazır: "Ziqmund Freyd, ümumiyyətlə, yuxuda at görməyi qarşı cinsə olan münasibət yozumu kimi qiymətləndirir. K.Yunq isə atı müsbət yönlü düşüncəni ifadə edən obraz olduğunu vurğulayır" [Vəliyeva, 2014, s. 14].

Folklor örnəklərində bəzən yuxu qəhrəmanın taleyinin açarı kimi təqdim olunur. Qəhrəmanın qarşısına çıxan hadisələri öncədən ona əyan edən yuxular gələcəkdən xəbər verən yuxulardır. Nağıl mətnlərində qəhrəmanın gördüyü yuxu onun gələcək taleyi ilə bağlı olaraq yozulur. Bəzən yuxuda öz sevgilisini görən qəhrəman ona qovuşmaq üçün çox əzablar çəkir. Yuxu və qəhrəman taleyi motivi, əsasən, dastanlarda belə olur. Buna yuxuda butavermə deyilir. Lakin biz nağıllarda da butavermə motivini izləyirik. Naxçıvan ərazisindən əldə edilmiş nağıl mətnlərində də yuxuda butaalma motivi mətnin mühüm elementi kimi təqdim olunur. Bununla yanaşı, görülən yuxunun satılması, qəhrəmanın aldığı yuxunun dalınca – butasının ardınca getməsi motivi də nağıllarda müşahidə ediləndir. Məsələn, "Qıra qız" [Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru, 1994, s. 137] nağılında kasıb kişinin yuxuda gördüyü və onları axtarmağa getdiyi qıralar gərçəkdə şahzadənin taleyinə çevrilir. Kişidən pul müqabilində satın aldığı yuxunun dalınca gedən şahzadə gərçəkdə qıraları yol kənarında tapır. İki qıranın içindən çıxan qızlar ölsə də, üçüncü qıradan çıxan qız sağ qalır və uzun sınaqlardan çıxaraq şahzadənin butası – yarı olduğunu təsdiqləyir. Təqdim olunan bu mətndə daha qədim dövrlərin inanc aləminin elementləri müşahidə edilir. Belə ki, pis yuxunu satmaq inancı digər türkdilli xalqlarda da müşahidə edilir. Məsələn, türkmənlərdə yuxunu satmaq inancı hazırda da vardır. Azərbaycanın da bəzi ərazilərinə məxsus əhalinin yuxu satmaq kimi inancı müşahidə edilir. Pis yuxunu sataraq onun gətirəcəyi şərdən qurtulmaq inancının təməlində şərin yuxunu alan insana keçəcəyi şərti dayanmır. Əksinə, yuxunu pulla alan insan yuxunu görənə onu satmaqla özünü şərdən qorumuş olur, yuxunu satdığı insanın isə yuxuda gördüyünün əksi ilə – xeyirlə rastlaşacağına inanılır.

Yuxuda buta almaq motivi dastanlarda müşahidə edilən ən aktiv motivlərdəndir. Aşıqlara, əsasən, aşıq olmaq, aşıqlıq istedadı yuxuda verilib. Naxçıvan aşıq mühitinin nümayəndələrinin həyatı barədə mövcud məlumatlara nəzər yetirdikdə onların da aşıqlığı yuxuda aldıqları butadan –

aşıqlıq vergisindən sonra baş verib. Naxçıvan mühitinə xas olan element – duz motivi də verilən buta ilə uyğunlaşdırılaraq təqdim edilir. Yəni, yuxuda buta verilən aşıq ona yuxuda verilən butanın dalınca gedərkən duz yükü ilə yola çıxır. Naxçıvan aşıqlarından olan XIX əsr aşığı Aşıq Məmmədcəfər haqqındakı bir rəvayətdə bu məqam öz aydın ifadəsini tapır: "Məmmədcəfər bir gün yorğun halda tarlada yatarkən müqəddəslər yuxusuna girib buta verir və bildirirlər ki, Mehdi xanın qızı Səhnə xanımla deyişmək üçün Darabasa getsin. Beləliklə, Məmmədcəfər yuxudan oyanır və arabasını duzla yükləyib alver adıyla Mehdi xanın mənzilinə gəlib çıxır..." [Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru antologiyası, 2010, s. 432]. Folklor mətnlərindəki yuxu motivi qəhrəmanın qutsal mövqeyə çatmasına güc verir, bir sözlə, qəhrəmanın haqqa çatmağına kömək edir. Bu mətndə də gördüyü yuxu həm Məmmədcəfərin haqq aşığı mərtəbəsini qazanmasına səbəbdir, həm də yuxuda müqəddəslər tərəfindən ona verilən butasına qovuşmağa gedən açar rolunu icra edir.

Bəzən özü simvolik məna daşıyan rənglər də yuxuların əsas mövzusuna çevrilir. Rənglərlə bağlı olan inanc sistemindən qaynaqlanaraq yuxuda görülən rənglərin də həmin düşüncələrlə bağlılığı müşahidə olunur. Belə ki, Naxçıvandan toplanmış yuxuyozumları örnəklərində yuxuda qara rəng görməyin ucalıq, uğur rəmzi kimi yozulduğu izlənilir. Qeyd edək ki, qara rəng digər folklor örnəklərində, əsasən, böyüklük, ucalıq rəmzini daşıyır.

Nağıl mətnlərində yuxunun dalınca getmək, onun malik olduğu əsas funksiyanı – butanı əldə etmək Naxçıvan folklor mətnlərində tez-tez müşahidə olunur. "Gülqahqah" nağılında da biz bunu izləyirik: "Bir Məlik Məmməd adında çoban olur. Bir gün o, yuxuda görür ki, uca bir dağın başına çıxıb. Dörd yanı da ulduznan doludu. Ayılıb yuxusunu anasına danışır. Anası onun yuxusunu yozub deyir ki, var-dövlət qazanıb xoşbəxt olacaqsan. Məlik Məmməd geyinib-kecinib yuxusunun dalınca gedir..." [Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru, 1994, s. 140]. "Çoban Yusufun yuxusu" nağılında da qəhrəmanın öz yuxusunun ardınca getməsi, yuxunu öz taleyinə çevirməsi motivi ilə qarşılaşırıq. Burada paralel olaraq yuxunu satmaq motivi də izlənilir: "Biri varmış, biri yoxmuş, keçmiş zamanlarda bir əkinçi varmış. Bir gün bu əkinçi yuxuda görür ki, sinəsinə gün düşüb, ayağına ay. Durub yuxusunu axtarmağa gedir. Bir az gedəndən sonra bir çobana ürcah olur. Çoban ondan soruşur: "Qardaş, hara gedirsən?" Əkinçi əhvalatı çobana danışır. Çoban bu kişiyə deyir: "Mən sənə qoyun verim, yuxunu sat mənə". Əkinçi yuxusunu çobana satıb geri qayıdır. Bu çobanın adı Yusufmuş. Yusuf da yola düşür, yuxusunu axtarmağa gedir..." [Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru, 1994, s. 163].

Naxçıvandan toplanılmış nağıl mətnlərində yuxu və alma motivlərinin qarşılaşmasını da izləyirik. Yuxuda alma görmək də xeyirlə əlaqələndirilir: "Yuxuda alma görənin oğlan övladı olar" [Azərbaycan folkloru antologiyası. XXIII say. Naxçıvan örnəkləri, 2012, s. 319]. Bu yozumun təməl olduğu motivi nağıl mətnlərində müşahidə edirik. "Quşpaşa" [Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru, 1994, s. 193] adlı nağıl mətnində övladı olmayan padşaha dərviş bir alma verib, onu arvadı ilə yarı bölüb yeməyi tövsiyə edir. Almanı yeyən qadın yuxuda görür ki, onların bir qızı olur. Və qız böyüdükdən sonra onu bir quş götürüb qaçır. Qadının yuxusu çin çıxır. Onların bir qızı dünyaya gəlir və hadisələr yuxuda olduğu kimi davam edir. Göründüyü kimi, yuxu ilə bağlı fövqəltəbiilik nağıl mətnlərində daha çox izlənilir.

Bir kiçik janr örnəyində yuxu görənin qadın olduğunda o yuxunun yalan olduğuna inanılır. Bu düşüncə yuxarıda örnək verilən nağıl mətnindəki fikri təkzib etsə də, örnəyin son dövrlərdə yarandığını təsdiq edir: "Arvad yuxusu yalan olar" [Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru antologiyası, 2011, s. 104].

Əfsanə mətnlərində də yuxunun real aləmə bağlılığı təsvir olunur. Məsələn, "Buxkar piri" [Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru antologiyası, 2010, s. 73] əfsanə mətnində pirin ətrafında hasar qaldırmaq istəyən xanı bu fikirdən dünya görmüş bir ağsaqqalın yuxusu daşındırır. Yuxuya əhəmiyyət vermək, əslində, onu gələcək həyat haqqında öncədən məlumat daşıyan bir Tanrı vergisi kimi qəbul etmək bu mətnin əsas xarakterini müəyyən edir.

Yuxuların müxtəlif günlərdə və vaxtlarda görülməsinin də öz xüsusiyyəti vardır. Məsələn, bazar, cümə, çərşənbə günlərində görülən yuxuların çin çıxacağına inanılır, digər günlərdə görülən yuxular günün saatları ilə uyğunlaşdırılaraq yozulur: "Səhər üzü gördüyün yuxu çin olar" [Mənbə verilməyənlər müəllifin şəxsi arxivindəndir]. Bununla yanaşı yuxuların mövsümlə əlaqədar yozulması və ya gerçəkliklə əlaqəsi məqamı da vardır. Bu haqda alim F.Hicranın toplama zamanı əldə etdiyi inanc örnəyi də diqqət çəkir: "Kiçik çillə girəndən sonra görülən yuxular yanlış sayılır. "Çillə yuxusu çin olmaz", – deyirlər" [Vəliyeva, 2014, s. 21].

## NƏTİCƏ

Naxçıvandan toplanılmış folklor örnəkləri daxilində yuxu motivləri, əsasən, nağıl mətnlərində izlənilir. Lakin kiçik janrın bir növü kimi yuxuyozumları ərazinin folklor mühitinə xas olaraq yaranıb və yaşamaqdadır. Ayrıca olaraq yuxuyozumları örnəkləri əhalinin folklor yaddaşında yaşayır, hətta yeni simvolik anlam daşıyan yuxuyozumu örnəkləri də yaranmaqdadır. Öncə də qeyd edilən kimi, nağıllarda, dastanlarda, əfsanə və rəvayətlərdə və s. yuxu motivləri çox da aktiv müşahidə olunmur. Buna baxmayaraq, qismən olsa da, yuxu motivləri ərazinin folklor mühitinə xas digər örnəklər daxilində də mövcuddur. Əldə olan və topladığımız örnəklər üzərində aparılan araşdırma sübut etdi ki, ərazinin folklor təfəkküründə yuxugörmə ilə bağlı qədim təsəvvürlərdən qaynaqlanan düşüncələr yaşamaqda və qorunmaqdadır. Düzdür, müasir dövrdə yuxuyozumları örnəklərinə islami düşüncə modelinin təsiri inkaredilməzdir. Lakin örnəklərin mahiyyəti onların qədim türk dünyagörüşünün məhsulu olduğunu təsdiq edir.

## ƏDƏBİYYAT

*Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru.* (1994). Sabah.

*Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru antologiyası* (1-ci cild). (2010). Əcəmi.

*Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru antologiyası* (2-ci cild). (2011). Əcəmi.

*Azərbaycan folkloru antologiyası. XXIII say. Naxçıvan örnəkləri* (2-ci cild). (2012). Elm və təhsil.

Bəydili, C. (Məmmədov). (2003). *Türk mifoloji sözlüyü.* Elm.

*El sözü, yurd yaddaşı. Folklor toplusu.* (2010). Elm.

Mənbə verilməyənlər müəllifin şəxsi arxivindəndir.

Vəliyeva, F. (Hicran). (2014). *Röyanın sirləri müdriklərimizin idrak xəzinəsində.* Aspoliqraf.

*(Akademik Muxtar İmanov tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 04.02.2026**
**Son variant 27.02.2026**